**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Seyidbəyli Məryəm Həsən qızı**
Qrantın məbləği: **150 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/50/5-M-25**
Müqavilənin imzalanma tarixi: **17 mart 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2017-ci il – 01 aprel 2019-cu il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|
| | **“Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik”** adlı layihə çərçivəsində 01.04.2017-01.04.2019-ci ili üçün yerinə yetirilməsi nəzərdə tutulmuş elmi işlər üzərində iş başa çatmışdır.<br><br>1. **“İlham Əliyevin multikulturalizm siyasətinin araşdırılması” (01.04.2017-01.07.2017) – mərhələsi üzrə** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda multikultural dəyərlər haqqındakı nitq və çıxışları toplanılıb sistemləşdirilmiş, Multikulturalizmlə əlaqədar olaraq müxtəlif elmi mənbələrdən materiallar toplanılmış, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin multikulturalizmlə bağlı imzaladığı fərman və sərəncamlara, müxtəlif hüquqi sənədlərə yer verilmiş, 2016-cı ilin “Multikulturalizm ili” elan olunmasının, həmçinin bunun məntiqi davamı olaraq 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan olunmasının Azərbaycanın Respublikasının inkişafı, bu günü və |

gələcəyi naminə oynadığı rol dəyərləndirilmiş, Azərbaycanın əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası dialoqda aparıcı rol oynaması, ölkəmizdə heç vaxt dini və etnik zəmində heç bir qarşıdurma olmaması və bu prosesin indi də uğurla davam etdirilməsi məsələləri araşdırılmış, Azərbaycan Respublikasında multikulturalizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün mövcud olan zəruri siyasi və sosial şərait geniş şəkildə şərh edilmişdir. Bu mərhələ üzrə aparılan tədqiqat zamanı nəzəri və təcrübi, analitik, həmçinin müqayisəli, müayisəli-tarixi, nəzəri təhlil metodlarından istifadə edilmişdir.

2. **“Heydər Əliyev və Azərbaycançılıq ideologiyası” (01.07.2017-01.10.2017)** – mərhələsi üzrə Müstəqil Azərbaycan Respublikasının ideya əsaslarının azərbaycançılıq ideologiyası üzərində qurulması ön plana çəkilmiş, Azərbaycan tarixində ilk dəfə olaraq azərbaycançılıq ideyasının dövlətin siyasi ideologiyası səviyyəsinə qaldırılması, Azərbaycançılığın dövlət siyasətində milli ideologiyaya çevrilməsi məsələsinin Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük tarixi xidmətlərindən biri olduğu qeyd edilmiş, Heydər Əliyevin əsasını qoyduğu Azərbaycançılıq ideologiyası ölkəmizdə yaşayan xalqları bir amal uğrunda birləşdirməsi: müstəqillik illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyəti araşdırılmış, müasir dövrdə Azərbaycan dövlətinin Ümummilli Liderin ideyaları əsasında inkişaf etdiyi, Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunmasının bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlılığı işıqlandırılmış, Müstəqil Azərbaycan Respublikasını qoruyub saxlamaq və möhkəmləndirmək üçün Azərbaycançılıq ideologiyasının əsas vasitə kimi mühüm rolu, xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşın mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyasının ölkədə vətəndaş birliyi üçün uğurlu təməl olması xüsusi vurğulanmışdır. Qeyd olunan mərhələ üzrə aparılan tədqiqat zamanı nəzəri və təcrübi, analitik, həmçinin müqayisəli, müayisəli-tarixi, nəzəri təhlil metodlarından istifadə edilmişdir.

3. **“Azərbaycançılıq ideologiyasının dövlət siyasətinin prioritet istiqaməti kimi təhlili” (01.10.2017-01.01.2018) mərhələsi üzrə** Azərbaycançılıq ideologiyasının Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğu, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycançılıq ideologiyasının dövlət siyasəti kimi həyata keçirilməsinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyi, Prezident İlham Əliyevin rəhbərliyi altında, dövlət siyasətinin bütün sahələrində olduğu kimi, azərbaycanlıq, azərbaycançılığın ümummilli ideologiya olaraq möhkəmlənməsi istiqamətində atılan ardıcıl addımlar, çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyasının müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət etdiyi, Azərbaycançılıq ideologiyasının çağdaş təkamül mərhələsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdə olduğu qeyd olunmuş,

Azərbaycançılıq ideologiyasının dövlət siyasətinin həyata keçirilməsindəki rolu ətraflı şəkildə araşdırılmışdır. Aparılan tədqiqat zamanı nəzəri və təcrübi, analitik, həmçinin müqayisəli, müayisəli-tarixi, nəzəri təhlil metodlarından istifadə edilmişdir.

4. **“XIX -XX əsrlərdə Azərbaycanda sosial-siyasi ideologiyaların tədqiqi” (01.01.2018-01.04.2018) mərhələsinin** tədqiqi zamanı aşağıdakı elmi işlər yerinə yetirilmişdir: Azərbaycançılıq ideologiyasının daha məqsədyönlü və geniş inkişafı XIX yüzillikdə yaşayıb-yaradan ziyalılarımızın, fikir və məfkurə adamlarımızın adı ilə bağlıdır. İctimai fikrin və siyasi ideologiyaların yaranmasında Azərbaycan ziyalılarının rolu araşdırılmışdır; Milli ideologiyanın yaranmasında İslamçılıq cərəyanının rolu tədqiq olunmuşdur. XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırlamışdır ki, bu məsələlərin ideologiyanın formalaşmasına təsiri göstərilmişdir. Azərbaycançılıq ideologiyasının ənənəvi köklərinin araşdırılması məhz bu mərhələdə yerinə yetirilmişdir. XIX əsrdə Azərbaycan gerçəkliyinin sosial-mədəni inkişafının tələblərinə cavab verən və universallığı ilə səciyyələnən maarifçilik hərəkatı ideoloji görüşləri formalaşdırmışdır. Azərbaycanın zadəgan ziyalı təbəqəsinin bir hissəsi XIX əsrdə təhsil almaq üçün İslam ölkələrinə, digər hissəsi isə Rusiyaya və Avropaya gedirdi. Sonuncular təhsil aldıqları ölkələrdə dil və elmlə bərabər həmin ölkələrin mənəvi-mədəni dəyərlərinə yiyələnir və vətənə qayıtdıqda bu dəyərləri öz milli dəyərləri və mənəvi ənənələri ilə birləşdirərək Azərbaycan xalqının ideologiyasının təşəkkülünə təkan verirdilər. Azərbaycançılıq ideologiyası geniş mənada, tarixən, təşəkkül tapıb, XIX əsrin sonu – XX əsrin əvvəllərində ilkin şəkildə formalaşdıqdan sonra dövrümüzədək mürəkkəb, ziddiyyətli, lakin mənsub olduğu xalqın iradəsini ifadə etdiyindən ardıcıl, davamlı bir təkamül yolu keçmişdir ki, bu tarixi proses elmi işdə geniş şəkildə qeyd olunmuşdur.

5. **"Azərbaycançılıq ideologiyasının tarixi köklərinin araşdırılması" (01.04.2018-01.07.2018) mərhələsi üzrə** yerinə yetirilmiş elmi işləri aşağıdakı kimi ümumiləşdirmək mümkündür: "Azərbaycançılıq ideologiyasının tarixi köklərinin araşdırılması" mərhələsi birbaşa layihə mövzusunun tarixi, ənənəvi hissəsi ilə bağlı olduğuna görə tədqiqat zamanı tarixi mənbələrdən olduqca geniş şəkildə istifadə olunmuşdur; Azərbaycan tarixən mədəniyyətlərin qarşılıqlı təsir arenası olmuş, ölkənin milli mədəniyyətinin inkişafı Yaxın və Orta Şərqin qonşu ölkələrinin mədəniyyəti ilə sıx əlaqədə inkişaf etmişdir. Azərbaycançılıq nəzəriyyəsinin və ideologiyasının tarixi köklərinin araşdırılması ilk növbədə “Azərbaycan” toponiminin meydana gəlməsi və tarixi inkişafı, Azərbaycanın tarixi coğrafiyası və dövlətçilik tarixi məsələlərinə aydınlıq gətirilməsini tələb edir. Azərbaycanın dünyaya tanıdılması istiqamətində atılmış mühüm addım 1919-cu ildə Parisdə C.Hacıbəyli tərəfindən "İlk müsəlman respublikası Azərbaycan" kitabının nəşri idi. Azərbaycançılığın nəzəri əsaslarının işlənib hazırlanmasında M.Ə.Rəsulzadənin Cümhuriyyətin bir illiyi münasibəti ilə “İstiqlal” məcmuəsinin 28 may 1919-cu il tarixli nömrəsində dərc etdirdiyi “Azərbaycan Cümhuriyyəti” adlı məqaləsi də mühüm mərhələ oldu. Cümhuriyyət hökumətinin qarşısında qoyduğu əsas məsələlərdən biri – hökumət idarələrinin,

məktəblərin, məhkəmələrin milliləşdirilməsi idi. Bu istiqamətdə atılan ilk və mühüm addım Azərbaycan hökumətinin Azərbaycan türk dilinin dövlət dili elan edilməsi haqqında 27 iyun 1918-ci il tarixli qərarı olmuşdur. Cümhuriyyət hakimiyyəti ölkədə mövcud olan dini-etnik sabitliyi qoruyub saxlamaqla yanaşı, multikultural birgəyaşayışın modern normalarını da yaradırdı. Azərbaycan hökuməti insan ləyaqətini alçaldan bütün milli və dini məhdudiyyətləri ləğv edilməsinə nail olmuşdu. Bu baxımdan Azərbaycan vətəndaşlığı haqqında qanun bütün vətəndaşlar üçün bərabər hüquq və azadlıqları təmin edirdi. Milli və dini azlıqların nümayəndələrinin hüquq və azadlıqlarının pozulması dövlət əleyhinə cinayətə bərabər tutulurdu.

6. **"Sovet Azərbaycanında Azərbaycançılıq ideologiyası" (01.07.2018-01.10.2018) mərhələsi** üzrə elmi-tədqiqat işinin yerinə yetirilməsi nəzərdə tutulmuş və qeyd olunan müddət ərzində ətraflı şəkildə araşdırma aparılaraq bu mərhələdə görüləcək işlər uğurla yekunlaşdırılmışdır. Aparılan tədqiqat işi üzrə aşağıdakı ümumi müddəalar əldə olunmuşdur: bolşeviklər 1920-ci il aprelin 28-də Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığını elan etdilər. Bütün hakimiyyət Müvəqqəti İnqilab Komitəsinə verildi. Elə həmin gün Azərbaycan SSR Xalq Komissarları Soveti təşkil edildi. Müvəqqəti İnqilab Komitəsi 1920-ci ilin mayından etibarən respublikanın taleyi ilə bağlı bir sıra dekretlər verdi, keçirdiyi iclaslarında Cümhuriyyət hökuməti və Parlamenti tərəfindən müəyyənləşdirilmiş və həyata keçirilmiş qərarların üzərindən xətt çəkdi, yeni ideolji xəttin konturlarını cızmağa başladı. 1920-ci il aprel işğalından az sonra Sovet Azərbaycanında “azərbaycançılığın” mühüm təzahürlərindən biri kimi xalqın öz tarixi adının – türk anlayışının üzərindən xətt çəkilməsi oldu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə formalaşmış milli ideologiyanın (türkləşmək, islamlaşmaq və müasirləşmək), əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlər sistemini məhv etmək üçün bolşeviklər yeni mübarizə mərhələsinə başladılar. Həm dövri mətbuat, həm sənət sovetləşdirildi, yəni marksist-leninçi baxışlar modelinə uyğunlaşdırıldı. Milli şüuru dəyişmək istiqamətində məqsədyönlü siyasət yürüdüldü. Cümhuriyyət dövründən fərqli olaraq Sovetlər dönəmində milli azərbaycançılıq - Azərbaycan türkçülüyü ideyasını axıra qədər qoruyub saxlamaq mümkün olmadı. Milli şüuru zədələyən əsas işlərin təməli də əsasən, bu dövrdə qoyuldu. Azərbaycan Cümhuriyyətinin siyasi müstəqilliyinə son qoyan Sovet Rusiyası latın əlifbasını Sovet Azərbaycanında tətbiq etməklə, onun milli mədəniyyətini də zərbə altında qoydu. Sovet Azərbaycanı ideyasının müəllifləri ilk mərhələdə milli azərbaycançılığa qarşı qəti şəkildə çıxa bilmədikləri üçün, sadəcə onu sübut etməyə çalışırdılar ki, Azərbaycan türkçülüyü osmançılıqdan və yaxud da Türkiyə türkçülüyündən fərqli xüsusiyyətlərə malikdir. Sosializm quruculuğunda milli amilin təhrif olunması, əhalisi müsəlman olan respublikalarda, o cümlədən Azərbaycanda xüsusilə aydın şəkildə təzahür edir, onlara münasibətdə milli ədalətsizliyin konservasiyasına, suveren hüquqların tapdalanmasına, dil-mədəniyyət siyasətinin təhrif edilməsinə daha çox yol verilirdi. 1937-1938-ci illərdə Azərbaycanın məşhur ziyalılarından H.Cavid, M.Müşfiq, Ə.Nəzmi, Ə.Cavad, T.Şahbazi, S.Mümtaz, S.Hüseyn və minlərlə başqaları repressiya qurbanları oldular. SSRİ ideoloqları sübut etməyə çalışırdılar ki, Azərbaycanda yaşayan və əhalinin böyük əksəriyyətini təşkil edən xalq etnik mənşəcə türk deyil, sadəcə olaraq türklərin assmilyasiyası nəticəsində

türk dillərindən birində danışan farsdili, yaxud da qafqazdilli etnosların törəmələridir. Azərbaycan dilinin dövlət dili olması haqqında qanunun qəbul edilməsi Azərbaycan ziyalıları və respublikanın yerli əhalisi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı Respublikada milli özünüdərk prosesinin inkişafında bu qanunun böyük əhəmiyyəti oldu. Sovet Azərbaycanında milli oyanışın təzahürlərindən biri kimi 1958-də ildə Bakıda M.Ə.Sabirin heykəlinin açılışı böyük bir hadisə idi. Azərbaycan xalqının, Azərbaycan millətinin böyük bir simvolu kimi ad qazanmış M.Ə.Sabirə respublika səviyyəsində verilən bu qiymət ötən əsrin 50-ci illərinin ikinci yarısında Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, milli ideyanın dirçəlişindən xəbər verirdi. “Azərbaycançılıq” məfkurəsinin inkişafında 1940-1950-ci illər daha çox “xalqlar dostluğu” ideyasının məqsədli şəkildə genişləndirilməsi ilə yadda qalır.

7. **"Elm, mədəniyyət və ictimai həyatda əks olunmuş Azərbaycançılıq fenomeni sahəsində multidissiplinar araşdırmanın aparılması" (01.01.2019-01.04.2019) mərhələsi** üzrə mövzusunda elmi-tədqiqat işinin yerinə yetirilməsi nəzərdə tutulmuş və qeyd olunan müddət ərzində ətraflı şəkildə araşdırma aparılaraq bu mərhələdə görüləcək işlər uğurla yekunlaşdırılmışdır. Aparılan tədqiqat işi üzrə aşağıdakı ümumi müddəalar əldə olunmuşdur: Azərbaycanlıların milli identikliyinin mənbəyini və əsas istqamətlərinin müəyyənləşməsini məhz Azərbaycan xalqının tarixi keçmişində, mədəniyyətində axtarmaq lazımdır. Əsrlər boyu azərbaycanlıların həyat və mədəniyyət mühitini müəyyənləşdirən zəngin xəzinə - memarlıq abidələri, dekorativ-tətbiqi sənət əsərləri, xalçalar və xalça məmulatları, saxsı əşyalar, metal və zərgərlik məmulatları, ağac üzərində bədii oyma və digər milli mədəniyyət nümunələri son nəticədə bu günkü ədəbi, müsiqi, təsviri və digər sənət əsərlərinin əsasını təşkil edən özünəməxsusuluğun “mövcudluq konsepsiyası”nı, dünyaduyumu və bədii təfəkkür xüsusiyyətlərini formalaşdırmışdır. Azərbaycanlıların etnik anniqilizasiyasına imkan verməyən, müstəsna gücə malik amil elə məhz mədəniyyət olmuşdur. “Etnik bədii yaddaş” özündə “çoxəsrlik yaradıcı təcrübəni, konkret xalqa məxsus mənəvi keyfiyyətləri, onun üçün adi olan assosiativ metafor düzümlərini, rəng, səs sırası və təsvirin ritmik təşkili sahəsində müəyyən üstüntutmaları və s. daşıyır. Bu yaddaş müasir yaradıcılığın ən müxtəlif – təsviri incəsənət, ədəbiyyat, müsiqi, kinematoqraf və digər sahələrinin hər birinin spesifikasından asılı olaraq özünü müxtəlif şəkildə göstərir. Azərbaycan mədəniyyətinin keçmiş və hazırki vəziyyətinin ayrı-ayrı aspektlərinin ümumi mənzərəsini nəzərdən keçirməklə müxtəlif profilli sənətkarların yaradıcılığındakı ümumi xüsusiyyətlərin konkret qanunauyğunluğa tabe olduğunu əyani surətdə görmüş oluruq. Xalq mədəniyyətinin söz və musiqi folkloru kimi çox böyük bir qatını nəzərdən keçirilməsi də tədqiqatımızdan kənarda qalmışdır. İslam dini Azərbaycan identikliyinin təşəkkül tapmasıının əsas tərkib hissələrindən biridir. Azərbaycan xalqının mənəvi mədəniyyətinin mühüm hissəsini həm də müsəlman cərəyanlarından biri, hələ XI əsrdə Azərbaycanda geniş yayılmış sufizm təşkil edirdi. Qədim dövrlərdən başlayaraq Azərbaycanda inkişaf etmiş mədəniyyət sahələrinə - əlyazma kitab sənəti və miniatür, bədii metal işləmə sənəti və naxışlar, muğam sənəti, poeziya və qəzəllər, rəssamlıq, folklor nümunələri və s. - toxunulmuş, bu sənət nümunələrində Azərbaycançılıq məfkurəsinin tədqiqi ön plana çəkilmişdir. Müasir

| | |
|---|---|
| | milli bədii yaradıcılığın spesifikliyini müəyyənləşdirmək üçün çağdaş prosesdə ənənələrin rolunu və dünyaqavramının tarixən təşəkkül tapmış xüsusiyyətləri ilə bugünkü bədii yaradıcılıq təcrübəsində mövcud olan ən yeni cərəyanlar arasındakı qarşılıqlı əlaqə nəzərə alınmaqla tədqiqata cəlb olunmuşdur.<br><br>8. **"Azərbaycan diasporunun formalaşmasında Azərbaycançılıq ideologiyasının rolunun tədqiqi" (01.10.2018-01.01.2019) mərhələsi** üzrə elmi-tədqiqat işinin yerinə yetirilməsi nəzərdə tutulmuş və bu işlər üzrə aparılan işlər tamamlanmışdır. Diaspor bu gün beynəlxalq münasibətlər sistemində çox sıx rast gəlinən terminlərdən biridir. Bunun əsas səbəbi isə milli-mənəvi dəyərlərin uğurla təbliği, dünya dövlətləri ilə sıx münasibətlərin qurulması, xarici siyasət sahəsində konkret nəticələrin əldə olunmasında diasporun mühüm rola malik olmasıdır. Bu gün “Azərbaycan diasporu” dedikdə xarici ölkələrdə məskunlaşmış azərbaycanlılar nəzərdə tutulur. “Xaricdə yaşayan azərbaycanlılar” anlayışının təfsiri “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu qanuna əsasən, “xaricdə yaşayan azərbaycanlılar” anlayışı Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş və hazırda ölkə hüdudlarından kənarda yaşayan şəxslərə, onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edən şəxslərə aid edilir. Azərbaycan Respublikası diasporu əsasən ABŞ, Kanada, Rusiya, Fransa, AFR, Böyük Britaniya, MDB ölkələri, Skandinaviya, Pribaltika ölkələri, Türkiyə və digər ölkələrdə mövcuddur. Azərbaycan Respublikası diasporunun formalaşması və yaranması tarixinə nəzər salanda məlum olur ki, o, indiyədək özünün beş mərhələsini yaşayıb. Birinci mərhələ: siyasi və hərbi hadisələrə bağlı olan qədim və orta əsrlər dövrü; ikinci mərhələ: Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı nəticəsində azərbaycanlı əhalinin miqrasiyasının güclənməsi; üçüncü mərhələ: AXC-nin süqutu, 1920-ci il aprelin 28-də sovet hakimiyyətinin qurulması və Azərbaycan xalqının siyasi, milli elitasına məxsus insanların ölkəni tərk etməsi; dördüncü mərhələ: 1941-1945-ci illər müharibəsi nəticəsində əsir düşmüş azərbaycanlıların başqa ölkələrdə məcburən qalması; beçinci mərhələ: SSRİ dövlətinin süqutu, Ermənistan SSR ərazisindən azərbaycanlıların 1988-ci ildə deportasiya olunması və nəhayət 1992-1994-cü illərdə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı həyata keçirdiyi hərbi təcavüzün, Dağlıq Qarabağ və onun ətrafında olan yeddi inzibati rayonun işğalı nəticəsində azərbaycanlıların qaçqın və köçkünə çevrilməsi. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | Planda nəzərdə tutulmuş işlər 100 % yerinə yetirilmişdir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |

| | |
|---|---|
| | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü multikulturalizm siyasətinin əsaslı şəkildə araşdırılması işin yenilik dərəcəsinin başlıca göstəricisidir. Hesabat dövründə alınmış elmi nəticələr və yenilik dərəcəsinə gəldikdə qeyd etməliyik ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideologiyasının ənənə və müasirlik vəhdətində araşdırılması tədqiqat işinin yeniliyini əks etdirir. Azərbaycançılıq ideologiyasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi tədqiqi zamanı məsələnin ənənəvi cəhətdən araşdırılması, həmçinin dövlət siyasəti ilə yanaşı, xarici siyasətdə də Azərbaycançılıq ideologiyasının rolunun şərhi tədqiqat işinin yeniliyini əks etdirir. Tədqiqat nəticəsində Azərbaycançılıq ideologiyasının tarixi kökləri müəyyənləşdirilmiş, "Azərbaycan" toponiminin yaranması, tarixi inkişafı, Azərbabaycanın tarixi coğrafiyası və dövlətçilik tarixi məsələlərinə aydınlıq gətirilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycançılıq məfkurəsinin inkişafı nəzərdən keçirilmişdir. Alınan nəticələr Azərbaycançılıq ideologiyasının öyrənilməsində və təbliğində, gənclərin vətənpərvərlik tərbiyəsində istifadə oluna bilər. Azərbaycançılıq ideologiyasının əsasını təşkil edən islamçılıq və türkçülük ideologiyalarının vətənpərvərlik hissinin güclənməsində rolu əsaslandırılmışdır. Azərbaycan tarixi, fəlsəfə, sosiologiya, etnologiya və s. fənnlərin tədrisində, kitabların və dərsliklərin yazılmasında istifadə oluna bilər. Tədqiqat nəticəsində eldə edilmiş elmi nəticələr innovativ məlumatlarla zəngin olmaqla bərabər elm və mədəniyyət sahəsində adlarını əbədiləşdirən və dünyanın müxtəlif ölkələrində yaşayan Azərbaycanlıların nəaliyyətlərinin müxtəlif qərb nəzəriyyələri çərçivəsində öyrənilməsidir. Bu əldə edilmiş nəticələrdən dövlətimizin əsas prioritetlərindən olan Azərbaycançılıq idealogiyasının təbliğində istifadə oluna bilər. |
| **4** | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | **Çap olunmuş elmi əsərlər:**<br>**Layihə rəhbəri - Məryəm Seyidbəyli:**<br>**1.** "Azərbaycan elmi diasporu". Monoqrafiya. Bakı-2017, "Avropa" nəşriyyatı, 200 s.<br>**2.** "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dini tolerantlıq siyasəti" adlı məqalə "Dövlət və din" İctimai fikir toplusunda çap olunmuşdur; № 05 (52), Sentyabr-oktyabr, səh. 8-14;<br>**3.** Azərbaycan təhsilində tarixi varislik. "Azərbaycan Xalq Cümhuriyyəti: tarixi |

retrospektivlik və müasirlik” mövzusunda elmi konfransın materialları, Bakı, 20 fevral 2018, s. 3-17.

4. "Роль обсерваторий в развитии астрономических знаний в Азербайджане" adlı tezis “Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda 29-31 oktyabr 2018-ci il tarixində AMEA Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş I Bakı Beynəlxalq Elmi Konfransının tezis materiallarında çap olunmuşdur.səh. 6-9
5. Институт истории науки НАНА: первые шаги adlı məqalə “Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda 29-31 oktyabr 2018-ci il tarixində AMEA Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş I Bakı Beynəlxalq Elmi Konfransının materiallarında çap olunmuşdur.səh.3-6

**İcraçı - Səbinə Nemətzadə:**

6. "Azərbaycan əlyazmaçılığında təzhib motivləri". Füyuzat jurnalı, №4 (96), 2017 (1906-1907), səh. 38-43.
7. Azərbaycan miniatürlərində qadın obrazları. İşıq qadın jurnalı, 2017, №4 (92), s.36-39

**İcraçı – Kamran İsmayılov:**

8. “1918-1920-ci illərdə Azərbaycanda demokratik dövlət quruculuğu təcrübəsindən” adlı məqalə AMEA Tarix İnstitutunun “Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi” mövzusunda beynəlxalq elmi konfransın materiallarının çap olunduğu Elmi Əsərlər (Xüsusi buraxılış) jurnalında nəşr olunmuşdur. Gəncə: “Turxan”, 2018, s. `268-277
9. Xalq cümhuriyyəti və azərbaycançılıq məfkurəsi. Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik” mövzusunda elmi konfransın materialları, Bakı, 20 fevral 2018, s. 98-103
10. “Azərbaycan Cümhuriyyəti – milli-mənəvi inkişaf və tolerant birgəyaşayış nümunəsi” adlı məqalə “Turizm və Qonaqpərvərlik tədqiqatları” beynəlxalq jurnalında çap olunmuşdur. Bakı: “Merkuri - ZS”, 2018, s. 188-201
11. "Elmi tarixi idrakın prinsipləri" adlı tezis “Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda 29-31 oktyabr 2018-ci il tarixində AMEA Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş I Bakı Beynəlxalq Elmi Konfransının materiallarında çap olunmuşdur.səh. 124-125

**İcraçı - Sevda Süleymanova:**

12. ”Milli ideologiyanın əsas komponenti olan milli-mənəvi dəyərlərimiz” adlı məqalə 23 iyun 2017-ci il tarixində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94 və hakimiyyətə qayıdışının 24-cü ildönümünə həsr olunmuş “Milli-mənəvi dəyərlərin qorunması Heydər Əliyevin amalıdır” mövzusunda Şamaxıda keçirilən V Beynəlxalq elmi konfransın materiallarında çap olunmuşdur. Şamaxı, 23 iyun 2017, s.302-307
13. “Azərbaycanda türkçülük ideologiyasının yaranması” adlı məqalə ”Tarix və onun problemləri” adlı jurnalda çap olunmuşdur. № 2, 2017, s.271-280
14. “Bir daha yüksələn bayraq bir daha enməz” adlı məqalə “Azərbaycan Xalq

| | |
|---|---|
| | Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik" mövzusunda elmi konfransın materiallarında çap olunmuşdur. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2018, s. 104-106<br>**15.** Rusiyanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbə-gənclərin həmyerli cəmiyyətləri (XIX əsrin sonu XX əsrin əvvəlləri) adlı məqalə "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda 29-31 oktyabr 2018-ci il tarixində AMEA Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş I Bakı Beynəlxalq Elmi Konfransının materiallarında çap olunmuşdur. s. 421-430<br><br>**İcraçı - Zeynəb Əliyeva:**<br>**16.** "Cultural awareness as the basis of the critical thinking. VISNYK of the Lviv University (scientific journal). Issue 18, 2018, p.21-25<br>**17.** Məşhur Azərbaycanlı səyyahın mədəni diffuzionizmdə rolu. "Gənc tədqiqatçı" elmi-praktiki jurnalı. IV cild, N1, 2018, s. 360-366<br>**18.** Dünya elmində iz qoyan azərbaycanlılar adlı məqalə "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda 29-31 oktyabr 2018-ci il tarixində AMEA Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş I Bakı Beynəlxalq Elmi Konfransının materiallarında çap olunmuşdur. s. 438-444<br>**19.** The cultural diffusionism: Haci Zeynalabdin Shirvani. Проблемы внедрения результатов инновационных разработок. Сборник статей по итогам Международной научно-практической конференции, 13 февраля 2019 г., стр.116-119<br>**20.** Dünya mədəniyyətində iz qoyan azərbaycanlılar. Bakı Avrasiya Universiteti, "Sivilizasiya" jurnalı. Cild 7 № 3 2018 (39), s. 186-193<br><br>**İcraçı – İkmət Daiyev**<br>**21.** Значение "Истории Флоренции" Н.Макиавелли в истории политической мысли" "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda I beynəlxalq elmi konfrans, 29-30 oktyabr 2018, Bakı, s. 230-232<br>**22.** Azərbaycançılıq və milli ləyaqət hissi. Bakı Avrasiya Universiteti, "Sivilizasiya" jurnalı, 2017, №4, s.75-80 |
| **5** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| **6** | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | **"Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik"** adlı layihə çərçivəsində 01.04.2017-31.03.2019-cu il aralığında 4 ezamiyyət baş tutmuşdur ki, bunlar aşağıdakılardır:<br><br>1. Layihə rəhbəri Məryəm seyidbəyli Kültür Varlıqları Dairə Başqanlığı, Kitabxana və Muzeylər |

Müdürlüyü, Atatürk Kitablığında (Kitabxanası) layihə mövzusu ilə əlaqədar tədqiqat aparmaq məqsədilə 05.09.2017-11.09.2017-ci il tarixlərin Türkiyənin İstanbul şəhərində ezamiyyətdə olmuşdur. Əsasən əski əlifba ilə yazılmış nəşrlər aşkar edilmiş, mövzunun tarixi baxımdan araşdırılmasına üstünlük verilmişdir. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən mühüm tarixi-siyasi amildir. Məhz ənənə və müasirliyin vəhdətində Azərbaycançılıq ideologiyasının araşdırılması məqsədilə əsasən XX əsrin birinci yarısında nəşr olunmuş kitab və məqalələr incələnərək mövzu ilə əlaqədar yerlər təsbit edilmiş və onların surəti çıxarılmaqla əldə edilmişdir. Bundan başqa Kültür Varlıqları Dairə Başqanlığı, Kitabxana və Muzeylər Müdürlüyü, Atatürk Kitablığında bir sıra mütəxəssislərlə görüşlər keçirilmiş və qurumlararası münasibətlərin gələcək perspektivləri və həyata keçiriləcək tədbirlər üzrə geniş müzakirələr aparılmışdır.

2. Layihə rəhbəri Məryəm Seyidbəyli Rusiya Milli Kitabxanası, Rusiya Elmər Akademiyasının S.İ.Vavilov adına Təbiətşünaslıq və Texnika Tarixi İnstitutunun Sankt-Peterburq filialının Elmi Kitabxanası, Rusiya Elmlər Akademiyasının Kitabxanası, Rusiya Elmlər Akademiyasının Arxivinin Sankt-Peterburq filialında tədqiqat aparmaq məqsədi ilə 23-29 oktyabr 2017-ci il tarixlərində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində ezamiyyətdə olmuşdur. Tarixiliklə müasirliyin nəzəri vəhdəti ilə ortaya qoyulan Azərbaycançılıq ideologiyasının rusdilli mənbələrdə araşdırılması, problemin müqayisəli şəkildə təhlilinə imkan yaradır ki, bu da layihə mövzusunun geniş miqyaslı tədqiqinə imkan vermişdir. Həmçinin qeyd etmək lazımdır ki, Sovet dövründə Azərbaycançılıq ideologiyasının tədqiq olunmasında rus dilli mənbələr böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ezamiyət müddətində əsasən XIX əsrin ortalarında nəşr olunan kitab və monoqrafiyalara üstünlük verilmiş, burada göstərilən fikir və mülahizələr şərh edilmişdir.

3. Layihə icraçısı Səbinə Nemətzadə Rusiya Dövlət Kitabxanasında tədqiqat işləri aparmaq məqsədilə 05-12 noyabr 2017-ci il tarixlərində Rusiya Federasiyasının Moskva şəhərində ezamiyyətdə olmuşdur. Tədqiqat zamanı Azərbaycançılıq ideologiyasının tarixi baxımdan araşdırılması üçün əsasən, XIX əsrdə nəşr olunmuş əsərlərdən istifadə olunmuş, qədim rus yazı növü ilə, həmçinin əski Azərbaycan əlifbası ilə qələmə alınmış kitablara da müraciət edilmişdir. Qeyd etmək lazımdır ki, yazılı materiallarla yanaşı, Azərbaycançlıq fenomenini özündə əks etdirən Azərbaycan maddi mədəniyyət nümunələri də aşkar edilmiş, onların bəzilərinin surətlərini əldə etmək mümkün olmuşdur. Tədqiqat zamanı XIX əsr araşdırmaçılarının əsərlərində Azərbaycanda multikultural dəyərlərin, tolerantlığın mövcudluğundan bəhs edən, bütün dövrlərdə Azərbaycan xalqının öz identikliyini qoruyub saxlamaq bacarığını özündə əks etdirən materiallar əldə olunmuşdur.

4. Layihə rəhbəri Məryəm Seyidbəyli Rusiya Dövlət Kitabxanası və Rusiya Elmlər Akademiyasının Arxivində tədqiqat aparmaq məqsədi ilə 02-08 dekabr 2017-ci il tarixlərində Rusiya Federasiyasının Moskva şəhərində ezamiyyətdə olmuşdur. ezamiyyət müddətində Qafqaz və Zaqafqaziyadakı milli-mədəni məsələlərlə bağlı nadir və dəyərli materiallar əldə edilmişdir. Daha çox arxiv materiallarına müraciət edilmiş, Azərbaycançılıq ideologiyasının tədqiqi baxımında olduqca əhəmiyyətli, nadir materiallar toplanmışdır.

| | |
|---|---|
| | Arxiv materialları ilə yanaşı, elektron kataloqda axtarış etməklə, XIX əsrin sonu XX əsrin birinci yarısında çap olunmuş bir sıra kitab, monoqrafiya və digər materiallar aşkarlanmışdır. |
| **7** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| **8** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | Layihə icraçısı Əliyeva Zeynəb Məhəmmədəli qızı Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin rəhbərliyi ilə 2-7 iyul 2017-ci il tarixlərində Gürcüstanda keçirilən “Migration and Development” adlı təlimdə iştirak etmişdir. Belə ki, təlim zamanı müəyyən araşdırmalar aparılmış və buradan layihənin beyin axını ilə bağlı bölməsinin işlənməsi üçün olduqca lazımlı məlumatlar əldə edilmişdir. |
| **9** | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | **Məryəm Seyidbəyli:**<br>1. 20 fevral 2018-ci il tarixində AMEA-nın Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş “Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik” mövzusunda elmi konfransda “Azərbaycan təhsilində tarixi varislik” adlı məruzə ilə çıxış etmişdir.<br>**2.** 29-31 oktyabr 2018-ci il tarixində AMEA Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş “Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda I Bakı Beynəlxalq Elmi Konfransında "Роль обсерваторий в развитии астрономических знаний в Азербайджане" adlı məruzə ilə çıxış etmişdir.<br><br>**Səbinə Nemətzadə:**<br>1. 20-24 noyabr 2017-ci il tarixində Türkiyə Cümhuriyyəti Turizm və Mədəniyyət Nazirliyi Araşdırma ve Təhsil Genel Müdürlüyü tərəfindən təşkil olunmuş “9-cu Millətlərarası Türk Xalq Mədəniyyəti” adlı beynəlxalq konfransda "Azərbaycan xalça sənətində milli identiklik və türkçülük elementləri" adlı məruzə ilə çıxış etmişdir.<br>2. 3-5 noyabr 2017-ci il tarixində Türkiyə Cümhuriyyəti Amasya Universitetində keçiriləcək "Beynəlxalq dini musiqi" simpoziumunda "Azərbaycan musiqi tarixində milli-dini dəyərlər" - adlı məruzə ilə çıxış etmişdir.<br><br>**Kamran İsmayılov:**<br>1. 20 fevral 2018-ci il tarixində AMEA-nın Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş “Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik” mövzusunda elmi konfransda “Xalq Cümhuriyyəti və Azərbaycançılıq məfkurəsi” adlı məruzə ilə çıxış etmişdir. |

2. 21 fevral 2018-ci il tarixində "Azərbaycan" qəzetinin 100 illiyi ilə bağlı ölkədaxili elmi konfransda "Azərbaycan qəzetində dövlət quruculuğu məsələləri" adlı məruzə ilə çıxış etmişdir.

3. 1 mart 2018-ci il tarixində Gəncədə keçirilən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Azərbaycan qadınının seçki hüququ: tarix və müasir qadın hərəkatı" mövzusunda beynəlxalq elmi-praktik konfransda "Azərbaycan Cümhuriyyəti və gənclik" adlı məruzə ilə çıxış etmişdir.

4. 29-31 oktyabr 2018-ci il tarixində AMEA Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş "*Elm tarixi* və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda I *Bakı Beynəlxalq* Elmi *Konfrans*ında "Elmi tarixi idrakın prinsipləri" adlı məruzə ilə çıxış etmişdir.

**Sevda Süleymanova:**

1. 26-28 Aprel 2017-ci il tarixində Ömər Halisdəmir Universiteti(Türkiyə), Qazax Dövlət Qızlar Pedaqoji Universiteti(Qazaxıstan) və Bakı Avrasiya Universitetinin (Azərbaycan) birgə təşkilatçılığı ilə Türkiyənin Niğde şəhərində keçirilən IV Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumunda "Türkçülük ideologiyasının yaranması (XIX əsrin sonu-XX əsrin əvvəlləri)" mövzusunda məruzə ilə çıxış etmişdir.
2. 1-2 iyun 2017-ci il tarixində Bakıda keçirilən "Müasir dəyişən dünyada xalqların milli mözünüdərk və özünütəsdiq prosesinin aktual problemləri" mövzusunda beynəlxalq elmi konfransda "Azərbaycanda milli özünüdərk prosesində milli ideyanın rolu" başlıqlı məruzə ilə çıxış etmişdir.
3. 23 iyun 2017-ci il tarixində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94 və hakimiyyətə qayıdışının 24-cü ildönümünə həsr olunmuş "Milli-mənəvi dəyərlərin qorunması Heydər Əliyevin amalıdır" mövzusunda Şamaxıda keçirilən V Beynəlxalq elmi konfransda "Milli ideologiyanın əsas komponenti olan milli-mənəvi dəyərlərimiz" başlıqlı məruzə ilə çıxış etmişdir.
4. 29-31 oktyabr 2018-ci il tarixində AMEA Elm Tarixi İnstitutu tərəfindən təşkil olunmuş "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda I Bakı Beynəlxalq Elmi Konfransında "Rusiyanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbə-gənclərin həmyerli cəmiyyətləri (XIX əsrin sonu XX əsrin əvvəlləri)" adlı məruzə ilə çıxış etmişdir.

| | |
|---|---|
| **10** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)* |
| **11** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| **12** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| | |
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Dissertant İsmayılova Jalə Musa qızının "Azərbaycanda milli-azadlıq ideyasının inkişaf tarixi ("Açıq söz" qəzetinin materialları əsasında)" mövzusunda 5503.02-Vətən tarixi ixtisası üzrə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi mənim rəhbərliyim altında hazırlanıb, müdafiə ərəfəsindədir |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)* |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

_______________
*(imza)*
" __" ________ 2019-cu il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Seyidbəyli Məryəm Həsən qızı**

_______________
*(imza)*
" __" ________ 2019-cu il

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ELMİN İNKİŞAFI FONDU**

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Seyidbəyli Məryəm Həsən qızı**
Qrantın məbləği: **150 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/50/5-M-25**
Müqavilənin imzalanma tarixi: **17 mart 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2017-ci il – 01 aprel 2019-cu il**

## Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | **“Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik”** adlı layihə çərçivəsində 01.04.2017-01.04.2019-cu ili ərzində aparılan araşdırmalarda layihə mövzusu ilə əlaqədar bir sıra əməli nəticələr əldə olunmuşdur. Layihə mövzusunun yekunu ilə əlaqədar hazırlanaraq çapa təqdim olunmuş “Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik” adlı kitabda əldə olunmuş bu əməli nəticələr fəsillərin yazılıb ərsəyə gətirilməsində əsas rol oyanışdır. Belə ki, aparılan tədqiqatlar Azərbaycançılıq ideologiyasının tarixi köklərinin keçmiş dövrlərə əsaslandığını göstərir. Tədqiqat nəticəsində Azərbaycançılıq ideologiyasının tarixi kökləri müəyyənləşdirilmiş, “Azərbaycan” toponiminin yaranması, tarixi inkişafı, Azərbabaycanın tarixi coğrafiyası və dövlətçilik tarixi məsələlərinə aydınlıq gətirilmişdir. Həmçinin Azərbaycan Xalq Cümhuriyyəti |

| | |
|---|---|
| | dövründə Azərbaycançılıq məfkurəsinin inkişafı nəzərdən keçirilmişdir. İstər ölkədaxili kitabxana və arxiv resursları, istərsə də xarici ölkələrə baş tutmuş ezamiyyətlər zamanı əldə olunan nadir arxiv materialları, əski əlifba ilə yazılmış nəşrlər əsasında Azərbaycançılıq ideologiyasının tədqiq olunması layihə müddətində əldə olunan əməli nəticələrin əsas nümunələrindəndir. Qeyd olunan bu materiallar layihə mövzusu ilə əlaqədar bir sıra digər sanballı elmi əsərlərin ortaya qoyulmasına zəmin yaradır. Daha əvvəl Azərbaycançılıq ideologiyası ilə bağlı yazılmış materiallara nəzər saldıqda və onların müqayisəli xarakteristikasını ortaya qoyduqda aydın şəkildə görünür ki, indiyə qədər bu mövzu üzrə bir sıra tədqiqatlar aparılsa da, Azərbaycançılıq ideologiyasının məhz ənənə və müasirliyin vəhdətində araşdırılması işin yeniliyini təşkil edir. Çünki Azərbaycançılıq ideologiyasının əsas mənbəyi ənənədir. Ənənə keçmiş və gələcəyi əlaqələndirir. Buna görə də mövzunun tarixi baxımdan araşdırılması tədqiqat işinin ən əhəmiyyətli amillərindəndir.<br>Həmçinin onu da qeyd etmək lazımdır ki, aparılan tədqiqatın əməli nəticəsi olaraq layihə rəhbəri Məryəm Seyidbəylinin müəllifi olduğu 1 (bir) monoqrafiya - “Azərbaycan elmi diasporu”. Monoqrafiya. Bakı-2017, “Avropa” nəşriyyatı, 200 s. – çap olunmuşdur. Eyni zamanda layihə icraçısı Kamran İsmayılovun “Azərbaycançılığın tarixi və mənəvi-mədəni əsasları" adlı monoqrafiyası çapa hazırlanmış və nəşr olunmaq üzrə təqdim olunmuşdur.<br>Bununla yanaşı, layihə rəhbəri və icraçılar tərəfindən 21 (səkkiz) elmi məqalə müxtəlif jurnallarda, konfrans materiallarında çap olunmuşdur. Ölkədaxili və beynəlxalq səviyyəli elmi konfrans və simpoziumlarda müxtəlif elmi məruzələrlə çıxışlar həyata keçirilmişdir.<br>Nəzərinizə çatdırmaq istərdik ki, layihənin ilk bir illik aralığında 4 (dörd) elmi ezamiyyət baş tutmuşdur. Rusiya Federasiyası və Türkiyə Cümhuriyyətində həyata keçirilən elmi ezamiyyətlər müddətində olduqca dəyərli arxiv mənbələri, əski əlifba ilə qələmə alınmış nəşrlər, nadir materiallar əldə olunmuşdur ki, bunlar da tədqiqat işinin sanballılığının artırılması, geniş və fundamental bir elmi işin ortaya qoyulması uğrunda atılmış ən əsas addımlardandır. |
| **2** | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* |

1. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | **“Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik”** adlı layihə çərçivəsində 01.04.2017-01.04.2019-ci ili ərzində aparılan tədqiqatların yekunu olaraq əldə olunan nəticələrdən gələcək tədqiqatlarda geniş şəkildə istifadə etmək mümkündür. Çünki yuxarıda qeyd etdiyimiz monoqrafiya və elmi məqalələr müasir dövrümüzün aktual problemlərindən olan Azərbaycançılıq ideologiyası, bu ideologiyanın tarixi aspektdən |

araşdırılması, multikulturalizm, tolerantlıq kimi mühüm məsələlərin tədqiqinə həsr olunmuşdur. Məhz bu səbəbdən layihə mövzusunun elmi məticələrindən bütövlükdə həm ölkədaxili elmi araşdırmalar zamanı, layihə və proqramların hazırlanmasında, birbaşa dövlətçiliklə əlaqədar olduğu üçün dövlət proqramlarında, həm də beynəlxalq səviyyəli layihələrdə istifadə oluna bilər. Çünki tədqiq olunan məsələ yalnız ölkə daxilində əldə olunan materiallar vasitəsilə deyil, həmçinin xarici ezamiyyətlər zamanı aşkarlanmış dəyərli elmi materiallarla zəngindir.

Bu məsələlər həmçinin ötən il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin geniş qeyd olunduğu, 2018-ci ilin Cümhuriyyət elan olunduğu bir dövrdə keçirilən tədbirlərdə məruzələr şəklində dilə gətirilmiş, bir sıra aktual məsələlər layihə icraçıları tərəfindən səsləndirilmişdir.

Tədqiqatın nəticələri Azərbaycançılıq ideologiyasının tarixi və mənəvi mədəni aspektlərinin öyrənilməsində və təbliğində geniş istifadə oluna bilər. Onlardan gənclərin vətənpərvərlik tərbiyəsində, təlim-tədris prosesində faydalanmaq mümkündür.

Alınan nəticələrdən Azərbaycana qarşı ideoloji və informasiya müharibəsi aparan erməni rəsmi dairələrinin və ideoloji mərkəzlərinin təbliğatına qarşı mübarizədə istifadə edilməsi də məsləhət görülür.

Ümumiyyətlə, tədqiqatın nəticələri Azərbaycançılıq ideologiyasının öyrənilməsində, təbliğ olunmasında, təşviqatında, gənclərin vətənpərvərlik ruhunda tərbiyələndirilməsinə zəmin yaradır.

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

___________________
*(imza)*
“ __” _________ 2019_-cu il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Seyidbəyli Məryəm Həsən qızı**

__________________
*(imza)*
“ __” _________ 2019-cu il

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

### ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Seyidbəyli Məryəm Həsən qızı**
Qrantın məbləği: **150 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/50/5-M-25**
Müqavilənin imzalanma tarixi: **17 mart 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2017-ci il – 01 aprel 2019-cu il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | 1 | | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 9 | | |
| | həmçinin xarici nəşrlərdə | 1 | | |
| 3. | Konfrans materiallarında məqalələr | 10 | | |

| | | | | |
|---|---|---|---|---|
| | O cümlədən, beynəlxalq konfras materiallarında | 8 | | |
| 4. | Məruzələrin tezisləri | 2 | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | 2 | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | - | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | "Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik" mövzusunda elmi konfrans | Ölkədaxili | Plenar<br>Şifahi<br>Şifahi | 3 |
| 2. | "9-cu Millətlərarası Türk Xalq Mədəniyyəti" adlı beynəlxalq konfrans | Beynəlxalq | Dəvətli | 1 |
| 3. | "Beynəlxalq dini musiqi" simpoziumu | Beynəlxalq | Dəvətli | 1 |
| 4. | "Azərbaycan" qəzetinin 100 illiyi ilə bağlı elmi konfrans | Ölkədaxili | Şifahi | 1 |
| 5. | "Milli-mənəvi dəyərlərin qorunması Heydər Əliyevin amalıdır" | Beynəlxalq | Dəvətli | 1 |
| 6. | "Azərbaycan qadınının seçki hüququ: tarix və müasir qadın hərəkatı" mövzusunda elmi-praktik konfrans | Beynəlxalq | Dəvətli | 1 |
| 7. | "Müasir dəyişən dünyada xalqların milli mözünüdərk və özünütəsdiq prosesinin aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans | Beynəlxalq | Dəvətli | 1 |
| 8. | "Elm tarixi və elmşünaslıq: | Beynəlxalq | Plenar | 3 |

| | | | | |
|---|---|---|---|---|
| | fənlərarası tədqiqatlar" mövzusunda I Bakı Beynəl-xalq Elmi Konfransı | | Şifahi<br>Şifahi | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

____________________
*(imza)*
" __" _________ 2019-cu il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Seyidbəyli Məryəm Həsən qızı**

___________________
*(imza)*
" __" _________ 2019-cu il